## “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanununun icrasına nəzarət

“Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Konstitusiya Qanununun 1.3-cü maddəsinə uyğun olaraq, Müvəkkil informasiya sahibi olan dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və vəzifəli şəxslərin “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarəti həyata keçirir.

İnformasiya sorğusunun icrasından qanunsuz olaraq imtina edilirsə və ya lazımınca icra olunmursa sorğuçu Ombudsmana şikayət etmək hüququna malikdir.

Müvəkkil informasiya əldə etmək hüququnun pozulmasına dair şikayətlə bağlı informasiya sahibi olan dövlət orqanından, yerli özünüidarə orqanından və ya vəzifəli şəxsdən pozuntuların aradan qaldırılmasını tələb edir.

İnformasiya sahibləri informasiyanın əldə olunmasının təşkilinə görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.



## Müvəkkilə necə müraciət etmək olar?

***Rəsmi internet səhifəsi:*** *www.ombudsman.az*

***“Elektron Hökumət” portalı:*** *www.e-gov.az*

***Ünvan:*** *Bakı şəhəri, Üzeyir Hacıbəyli 80, Hökumət evi, II Ala qapı*

***E-poçt:*** *ombudsman@ombudsman.az*
*apparat@ombudsman.az*

***Çağrı Mərkəzi:*** *916 və ya (012) 916*

***Tel/Fax:*** *(+99412) 493 74 22*

***Facebook:*** *@ombudsman.az*

***Twitter:*** *@az_ombudsman*

***Youtube:*** *Ombudsman of Azerbaijan*

***Instagram:*** *ombudsman_azerbaijan*



AZƏRBAYCAN RESPUBLİKASININ
İNSAN HÜQUQLARI ÜZRƏ
MÜVƏKKİLİ (OMBUDSMAN)

# ƏCNƏBILƏRİN VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏRİN İNFORMASIYA ƏLDƏ ETMƏK HÜQUQU



Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsinə əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər.

## İnformasiya əldə etmək hüququ (azadlığı)

Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsinə əsasən hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır.

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə əsasən hər kəs özü birbaşa və ya nümayəndəsi vasitəsilə informasiya sahibinə müraciət etmək, informasiyanın növünü və əldə etmə formasını seçmək hüququna malikdir.



## İnformasiya nədir?

Yaranma tarixindən, təqdimat formasından və təsnifatından asılı olmayaraq istənilən fəaliyyət nəticəsində yaradılan, yaxud əldə olunan faktlar, rəylər, bilgilər, xəbərlər və ya digər xarakterli məlumatlardır.

Əldə olunma növünə görə informasiya ümumi istifadə üçün açıq və alınması məhdudlaşdırılan informasiyalara bölünür.

## İnformasiya sahibləri kimlərdir?

- dövlət orqanları və bələdiyyələr.
- ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslər (o cümlədən publik hüquqi şəxslər), həmçinin normativ hüquqi aktlarla və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi və fiziki şəxslər.

## İnformasiya sahibinin vəzifəsi nədir?

İnformasiya sahibi öz informasiya ehtiyatlarından hər kəsin sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə informasiya əldə etmək hüququnu qanunla müəyyənləşdirilmiş qaydada təmin etməyə borcludur.

## İnformasiya sorğusu nədir?

İnformasiya əldə etmək üçün informasiya sahibinə edilən yazılı və ya şifahi müraciət - informasiya sorğusu, bu müraciəti edən hüquqi və fiziki şəxs isə sorğuçu adlanır.

## Yazılı informasiya sorğusunda hansı məlumatlar göstərilməlidir?

- sorğuçunun adı və soyadı;
- informasiya sahibinin sorğunu təmin edə bilməsi üçün sorğuçuya aid əlaqə məlumatları (poçt və ya elektron poçt ünvanı, telefon və ya telefaks nömrəsi);
- sorğu edilən informasiyanın məzmunu, yaxud sənədin növü və ya adı, sənədin sorğuçuya bəlli olan rekvizitləri;
- informasiyanın təqdim edilmə forması.

Sorğuçu fərdi məlumat əldə etmək istədikdə, şəxsiyyətini təsdiqləyən sənədi təqdim etməlidir

## İnformasiya sorğusunun icra müddətləri

İnformasiya sorğusu ən qısa müddətdə, lakin 7 iş günündən gec olmayaraq icra edilir. İnformasiyanı hazırlamaq üçün əlavə vaxt tələb olunduqda icra müddəti 7 gün də uzadıla bilər.

Bu müddətdə informasiya öz operativliyini itirərsə, sorğuya dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavab verilməlidir.

İnsan həyatı, sağlamlığı, yaxud şəxsin azadlığı üçün real təhlükə yarandığı hallarda axtarılması və hazırlanması müəyyən vaxt tələb edən informasiya 48 saat ərzində (qeyri-iş günləri istisna olmaqla) təqdim edilir.

